AZƏRBAYCAN RESPUBLİKASININ
QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARINA
DÖVLƏT DƏSTƏYİ AGENTLİYİ

MİRAS
Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi

mədəni irs ustad məktəbi

# MƏDƏNİ İRS BEYNƏLXALQ USTAD MƏKTƏBİ

## TƏDRİS VƏSAİTİ

Hazırlayan:
Dr. Fariz XƏLİLLİ

BAKI - 2025

Kitabın məzmunu "Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin cavabdehliyindədir, bu baxımdan kitabın məzmunu Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin mövqeyini əks etdirmir.

Kitab Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə hazırlanmışdır.

Xəlilli, Fariz. (Hazırlayan). (2025). Mədəni İrs Beynəlxalq Ustad Məktəbi: Tədris vəsaiti. Bakı: AFPoliqrAF.

16-25 iyul 2025-ci il tarixlərində "Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin Mədəni İrs Beynəlxalq Ustad Məktəbi ilk dərslərinə başlamışdır. Dərslər müxtəlif mədəni irs mövzularında olub, Azərbaycan, Türkiyə, İtaliya irs mütəxəssisləri tərəfindən aparılmışdır. Təlimçilərin mühazirələri tədris vəsaiti şəklində nəşrə hazırlanmışdır.

Elmi redaktor: Prof.Dr. Qafar Cəbiyev
Rəyçilər: Prof.Dr. Kübra Əliyeva
Prof.Dr. Şikar Qasımov

Tərcümə: Fariz Xəlilli
Dizayn: İntiqam Məhəmmədli
Koordinator: Məleykə Hüseynova
Fotolar: Nicat Nağızadə, Fariz Xəlilli, Elmira Abbasova, Fidan Xəlilli, Fərid Xəlilli

ISBN: 978-9952-8561-2-5

© "Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi, 2025

# MÜNDƏRİCAT

Prof.Dr. Qafar Cəbiyev - MƏDƏNİ İRS USTAD MƏKTƏBİ KURSUNA GİRİŞ VƏ YA MƏDƏNİ İRSİN TƏDQİQİ, QORUNMASI VƏ TƏŞVİQİ İSTİQAMƏTİNDƏ PRİORİTETLƏR: ƏNƏNƏVİ YANAŞMALAR VƏ YENİ ÇAĞIRIŞLAR ........ 6
https://doi.org/10.30546/978-9952.2025.1006

Prof.Dr. Luici Skrinzi - ZƏRGƏRPALAN HAMAMI: BEYNƏLXALQ TƏDQİQAT VƏ KONSERVASİYA MİSSİYASI ........ 18
https://doi.org/10.30546/978-9952.2025.1018

Dr. Fariz Xəlilli - MƏDƏNİ İRS ABİDƏLƏRİNDƏ ARXEOLOJİ TƏDQİQATLAR ........ 25
https://doi.org/10.30546/978-9952.2025.1025

Məleykə Hüseynova - MƏDƏNİ İRSİN QORUNMASI SAHƏSİNDƏ MİLLİ VƏ BEYNƏLXALQ TƏNZİMETMƏ ........ 43
https://doi.org/10.30546/978-9952.2025.1043

Dos.Dr. Günel Seyidəhmədli - AZƏRBAYCANIN TARİX-MƏDƏNİYYƏT QORUQLARI ........ 65
https://doi.org/10.30546/978-9952.2025.1065

Prof.Dr. Şikar Qasımov - AZƏRBAYCANIN QEYRİ-MADDİ MƏDƏNİ İRSİ VƏ ONUN YUNESKO-DAKI YERİ ........ 87
https://doi.org/10.30546/978-9952.2025.1087

Dos.Dr. Pərvin Ahənçi - TARİXİ-MƏDƏNİ İRSİN RƏQƏMSALLAŞDIRILMASI ........ 103
https://doi.org/10.30546/978-9952.2025.1103

Dos.Dr. Həbibə Əliyeva - MƏDƏNİ İRS ABİDƏLƏRİ ÜZƏRİNDƏKİ EPİQRAFİK TƏDQİQATLAR ........ 129
https://doi.org/10.30546/978-9952.2025.1129

Dr. Şəhla Xəlilli - DÜNYA YADDAŞI: ƏLYAZMA İRSİ ........ 142
https://doi.org/10.30546/978-9952.2025.1142

Dr. Nəzmin Cəfərova - MUZEYLƏR MƏDƏNİ İRSİN KEŞİYİNDƏ ........ 154
https://doi.org/10.30546/978-9952.2025.1154

Gülşən Hüseynova - FÖVQƏLADƏ HALLAR ZAMANI MƏDƏNİ İRSİN MÜHAFİZƏSİ ........ 185
https://doi.org/10.30546/978-9952.2025.1185

Arzu Həsənli - MƏDƏNİ İRSİN SOSİALLAŞMASI VƏ ONUN CƏMİYYƏT ÜÇÜN ƏHƏMİYYƏTİ ........ 205
https://doi.org/10.30546/978-9952.2025.1205

Aidə Məlikova - MƏDƏNİ İRS TURİZMİ ........ 211
https://doi.org/10.30546/978-9952.2025.1211

Prof.Dr. Zahidə Məmmədova, Dos.Dr. Məhəmməd Nurməmmədov - MEMARLIQ ABİDƏLƏRİNİN BƏRPASI VƏ KONSERVASİYASI ........ 224
https://doi.org/10.30546/978-9952.2025.1224

Cəlaləddin Küçük, Nadirə Minə Yar - BƏRPA VƏ KONSERVASİYADA MATERİALLAR ........ 246
https://doi.org/10.30546/978-9952.2025.1246

Əfqan Quliyev - BƏRPA LAYİHƏLƏRİNİN HAZIRLANMASI VƏ UĞURLU TƏCRÜBƏLƏR ........ 259
https://doi.org/10.30546/978-9952.2025.1259

Prof.Dr. Qafar Cəbiyev, Dr. Fariz Xəlilli, Dr. Elmira Abbasova - Bakı şəhəri Yasamal rayonu Həmidağa Hüseynzadə küçəsində yerləşən Hamam binası daxilində və ətrafında konservasiya və təmizləmə işləri çərçivəsində aparılan arxeoloji tədqiqatların HESABATI ........ 263
https://doi.org/10.30546/978-9952.2025.1248

# MƏDƏNİ İRSİN QORUNMASI SAHƏSİNDƏ MİLLİ VƏ BEYNƏLXALQ TƏNZİMETMƏ

Məleykə Hüseynova
Tədqiqatçı
"Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi
https://doi.org/10.30546/978-9952.2025.1043

**Giriş.** Mədəni irs hər bir xalqın milli-tarixi sərvətidir. Keçmişdən bu günə qədər tarixi yol keçmiş, bu gündən gələcəyə doğru istiqamətlənən mədəni irsi qorumaq, hər bir xalqın öz kimliyini qoruması deməkdir. Əcdadlarımızın bizə miras qoyduğu mədəni irs, bizim də gələcək nəsillərə qoruyaraq ötürməli olduğumuz dəyərli bir xəzinədir. Bəs mədəni irs nədir?

Azərbaycan Respublikasının "Mədəniyyət haqqında" Qanununa əsasən, milli mədəni irs dedikdə, Azərbaycan xalqına məxsus, ümumazərbaycan əhəmiyyəti daşıyan, universal dəyərlərə malik mədəniyyət nümunələrinin məcmusu başa düşülür. Mədəni irs, hər bir cəmiyyətin və ya millətin, bir xalqın və ya milli azlığın keçmişinə aid maddi və mənəvi ünsürləri özündə əks etdirən mədəni sərvətlərin məcmusudur.

Azərbaycan Respublikasında mədəni irs nümunələrinin qorunması, bərpası və istifadəsi Qaydasına əsasən, milli mədəni irsə aşağıdakılar aid edilir: muzey, incəsənət, audiovizual (o cümlədən kino), teatr, kitabxana, əlyazma, arxiv, folklor, arxeologiya, etnoqrafiya, memarlıq, dekorativ-tətbiqi sənət nümunələri və tarix-mədəniyyət qoruqları.

Mədəni irs nümunələri maddi (daşınmaz və daşınar) və qeyri-maddi mədəni irs nümunələrinə bölünür. Daşınmaz maddi mədəni irs dedikdə, daşınmaz arxeoloji, memarlıq, bağ-park, monumental, xatirə abidələri, dekorativ-tətbiqi sənət nümunələri, o cümlədən mədəniyyət, memarlıq, bədii, etnoqrafiya, təbiət abidələri və tarixi qoruqlar, mədəniyyət məkanları, məqbərələr, arxeoloji komplekslər, memarlıq ansamblları, dini ocaqlar və etnoparklar nəzərdə tutulur. Daşınar maddi mədəni irsə tarixi, təbii, arxeoloji, sənədli, etnoqrafik, kulinar, bədii, elmi-tədqiqat, rəsm, incəsənət, kinomatoqrafiya, numizmat, filatelist, heraldik, biblioqrafiya, epiqrafiya, estetik, etnoloji və antropoloji daşınar sərvətlərin məcmusu aiddir.

Qeyri-maddi mədəni irs dedikdə isə, şəxslərin, qrupların və cəmiyyətin özü tərəfindən mədəni irs nümunələri kimi qəbul edilən ənənələr, təsvir və ifadə formaları, bilik və bacarıqlar, onların yaradılmasında istifadə olunan alətlər, əşyalar, artefaktlar və mədəniyyət məkanları başa düşülür.

**Mədəni irsin qorunmasının əhəmiyyəti və tənzimləmə metodları.** Mədəni irsin qorunması niyə vacibdir və necə həyata keçirilir?!

Mədəni irsin qorumasının əhəmiyyəti birbaşa Azərbaycan Respublikasının Konstitusiyası ilə təsbit olunur. Konstitusiyanın 40-cı maddəsində hər kəsin mədəniyyət hüququ tanınır və deyilir ki, "Hər kəsin mədəni həyatda iştirak etmək, mədəniyyət təsisatlarından və mədəni sərvətlərdən istifadə etmək hüququ vardır". Lakin eyni zamanda bu hüququ tanıyarkən Konstitusiya eyni maddə ilə hər kəsin vəzifəsini müəyyən edir. Belə ki, həmin maddənin 2-ci hissəsində bildirilir

ki, "Hər kəs tarixi, mədəni və mənəvi irsə hörmətlə yanaşmalı, ona qayğı göstərməli, tarix və mədəniyyət abidələrini qorumalıdır". Bundan başqa Konstitusiyanın 77-ci maddəsinə görə tarix və mədəniyyət abidələrini qorumaq hər kəsin borcudur.

Mədəni irsin qorunması və bərpası dedikdə mədəni sərvətlərin qorunub saxlanılması, gələcək nəsillərə ötürülməsi və mədəni irs nümunələrinin daha çox məhv olmasının qarşısını almaq məqsədilə onların elmi yanaşmalara uyğun şəkildə bərpa edilməsi üçün görülən işlərin məcmusu başa düşülür. Azərbaycan Respublikasında mədəni irs nümunələrinin qorunması, bərpası və istifadəsi Qaydasında Mədəni irs nümunələrinin qorunması dedikdə, mədəni irs nümunələrinin silahlı münaqişələr, ixtişaşlar və ictimai asayişin pozulmasının digər halları da daxil olmaqla istənilən təhlükələrdən qorunması, habelə mədəni irs nümunələrinin zədələnməsi, deformasiyası, dağıdılması, sökülməsi, konfiqurasiyasının pozulması və ya silahlı münaqişələr, ixtişaşlar və ictimai asayişin pozulmasının digər halları da daxil olmaqla, istənilən təhlükələr nəticəsində dəyərini itirməsinin qarşısının alınması, mədəni sərvətlərin müəyyən edilməsi, tədqiqi, siyahıya alınması, monitorinqi və istifadəsinə nəzarət edilməsi məqsədi ilə mədəni irs nümunələrinin mühafizəsini təmin edən dövlət orqanları və bələdiyyələr tərəfindən həyata keçirilən hüquqi, maddi-texniki və təşkilati tədbirlər nəzərdə tutulur (Maddə 1.3).

Mədəni irsin qorunması beynəlxalq səviyyədə müvafiq təşkilatlar tərəfindən qəbul olunmuş sənədlər, milli səviyyədə isə səlahiyyətli dövlət qurumları tərəfindən ölkə qanunvericiliyi və tərəfdar çıxılmış beynəlxalq öhdəliklərə uyğun şəkildə həyata keçirilir.

**Mədəni irsin qorunması sahəsində milli qanunvericilik və qurumlar.** Azərbaycan Respublikasında mədəni irsin qorunması üzrə əsas səlahiyyətli orqanlar Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətidir. Lakin bunlarla yanaşı, digər müvafiq icra hakimiyyəti orqanları, rəsmi qurumlar, bələdiyyələr, hüquqi və fiziki şəxslər də mədəni irsin qorunması üçün məsuliyyət daşıyır və bu sahədə müvafiq hüquq və vəzifələrə malikdirlər. Bu, birbaşa Azərbaycan Respublikasının Konstitusiyası, müvafiq qanunvericilik aktları və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gəlir.

Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti (bundan sonra — Xidmət) mədəni irsin qorunması (Şuşa şəhəri, Dövlət Turizm Agentliyinin tabeliyindəki dövlət qoruqları, "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqları istisna olmaqla), dövlət mühafizəsində olan daşınmaz tarix və mədəniyyət obyektlərindən (abidələrindən) istifadə, onların bərpası, rekonstruksiyası, konservasiyası və yenidən qurulması sahəsində dövlət nəzarətini həyata keçirən icra hakimiyyəti orqanıdır. Xidmət öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, qanunlarını və tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Mədəniyyət Nazirliyi haqqında Əsasnaməni, nazirliyin normativ hüquqi aktlarını, mədəniyyət nazirinin qərar, əmr və sərəncamlarını və Xidmət haqqında Əsasnaməni rəhbər tutur.

Xidmətin fəaliyyət istiqamətləri aşağıdakılardan ibarətdir: müvafiq sahədə vahid dövlət siyasətinin formalaşdırılmasında iştirak və bu siyasətin həyata keçirilməsini təmin etmək, mədəni irsin qorunması və inkişafını təmin etmək, bu sahədə dövlət nəzarətini həyata keçirmək, dövlət mühafizəsində olan daşınmaz tarix və mədəniyyət obyektlərinin bərpası, rekonstruksiyası, konservasiyası, yenidən qurulması, texniki təchizat vasitələrinin yenilənməsi, cari və əsaslı təmir-bərpa işlərinin layihələndirilməsinə nəzarət etmək, müvafiq sahədə əsaslı vəsait qoyuluşu

üzrə dövlət büdcəsi və digər maliyyə mənbələrindən ayrılan vəsaitin səmərəli idarə edilməsini təmin etmək, aparılan abadlıq, inşaat, təmir, bərpa, rekonstruksiya, konservasiya və yenidənqurma işlərinin layihələrinin həyata keçirilməsinə Azərbaycan Milli Elmlər Akademiyasının rəyi nəzərə alınmaqla razılıq vermək və işlərin gedişinə nəzarət etmək.

Xidmət öz fəaliyyətini həyata keçirərkən "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti haqqında Əsasnamə"dən irəli gələn hüquq və vəzifələr daşıyır. Əsasnamənin 3-cü maddəsinə əsasən, Xidmətin vəzifələri aşağıdakılardır: müvafiq sahəyə dair dövlət proqramları və inkişaf konsepsiyalarının həyata keçirilməsində iştirak etmək, dövlət qurumlarının müvafiq sahə ilə bağlı fəaliyyətini əlaqələndirmək, öz tabeliyindəki elmi-tədqiqat, layihə və istehsalat təşkilatlarının işini səmərəli təşkil etmək, tarix və mədəniyyət abidələrindən istifadə və onların təbliği işini, bu sahədə beynəlxalq və yerli tədbirlərin keçirilməsini təşkil etmək, abidələrdə təmir və bərpa işləri aparıldıqda texniki-iqtisadi əsaslandırmanın hazırlanması və smeta sənədlərinin ekspertizadan keçirilməsini təmin etmək, bərpa ilə bağlı layihə-smeta sənədlərini hazırlamaq, abidələrin mühafizəsinin dövlət monitorinqini həyata keçirmək, qazıntı işləri təşkil edən hüquqi və fiziki şəxslərdən aparılmış tədqiqatlar barədə hesabat tələb etmək, abidələrin bərpası, mühafizəsi və istifadəsinə dair layihələrin hazırlanmasında iştirak etmək, bu sahədə inşa edilən obyektlərin və əsas fondların tikintisi və təmiri üçün ayrılmış vəsait hesabına görülən işlər üzrə sifarişçi funksiyasını yerinə yetirmək, aparılan bərpa və tikinti-quraşdırma işlərinin təsdiq edilmiş layihə-smeta sənədlərinə uyğun icrasına, vaxtında istifadəyə verilməsinə Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə əsasən texniki nəzarət etmək və tikintisi başa çatmış obyektlərin istismarına icazə üçün sənədləri təqdim etmək.

Əsasnamənin 4-cü maddəsinə əsasən, Xidmətin hüquqları aşağıdakılardır: dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə sahə ilə bağlı məlumatlar (sənədlər) barədə sorğu vermək və cavab almaq, beynəlxalq təşkilatlarla və xarici ölkələrin müvafiq orqanları ilə əməkdaşlıq etmək, xarici təcrübəni öyrənmək, fəaliyyət istiqamətləri üzrə rəy və təkliflər vermək, təhlillər və tədqiqatlar aparmaq, analitik materiallar hazırlamaq, bərpa olunan və tikilən obyektlərə müəllif nəzarətini təmin etmək, tarix və mədəniyyət abidələrinin mühafizə zonalarında qabaqlayıcı tədbirlər görülməsi ilə bağlı qərar qəbul etmək, təsadüfən aşkar edilmiş abidələrin mülkiyyətçisindən və ya istifadəçisindən məlumat almaq, dövlət və bələdiyyə mülkiyyətindəki abidələrin konservasiyası, bərpası, rekonstruksiyası və regenerasiyası ilə bağlı qərar qəbul etmək, müstəqil ekspert və mütəxəssisləri fəaliyyətə cəlb etmək, xüsusi bülletenlər və digər nəşrlər buraxmaq, sahə üzrə işçi qruplar və komissiyalar yaratmaq, konfranslar, seminarlar və digər tədbirlər keçirmək.

Azərbaycan Respublikasında mədəni irsin qorunması və bu sahədə olan münasibətlər aşağıdakı normativ hüquqi aktlarla tənzimlənir:

- Azərbaycan Respublikasının Konstitusiyası (1995);
- "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanunu (2012);
- "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu (1998);
- "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu (2003);
- "Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu (2004);
- "Arxeoloji irsin qorunması haqqında" Avropa Konvensiyasına Azərbaycan Respub-

likasının qoşulması haqqında Qanun (1999);
- UNESCO-nun "Qeyri-maddi mədəni irsin qorunması haqqında" Konvensiyasının təsdiq edilməsi haqqında Qanun (2006);
- Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları;
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamları;
- Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi haqqında Əsasnamə (2018);
- Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti haqqında Əsasnamə (2018);
- Daşınmaz tarix və mədəniyyət abidələrinin qorunması və tarix-mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014–2020-ci illər üzrə Dövlət Proqramı (2013);
- Azərbaycan Respublikasında mədəni irs nümunələrinin qorunması, bərpası və istifadəsi Qaydası (2015);
- Mədəniyyət sahəsində fəaliyyət istiqamətləri üzrə digər müvafiq qanunlar ("Mədəniyyət haqqında" Qanunun 20.2-ci maddəsi).

Bu sənədlər arasında Konstitusiya ali hüquqi qüvvəyə malikdir. Qəbul edilmiş digər hüquqi aktlar Konstitusiyaya və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq sənədlərə uyğun olmalıdır. Əgər ziddiyyət yaranarsa, beynəlxalq müqavilələr (Konstitusiya istisna olmaqla) üstünlük təşkil edir (Azərbaycan Respublikası Konstitusiyasının 151-ci maddəsi).

**Mədəni irsin qorunması sahəsində beynəlxalq sənədlər və təşkilatlar.** Mədəni irsin hüquqi qorunması beynəlxalq əməkdaşlıq olmadan qeyri-mümkündür. Beynəlxalq əməkdaşlıq prinsipinə görə dövlətlər milli özünəməxsusluğun və hər bir şəxsin mədəni irsdən istifadəsinin təmin edilməsi üçün mədəni sərvətlərin qorunub saxlanması və mühafizə edilməsi işində beynəlxalq əməkdaşlıq etməyə borcludurlar. Beynəlxalq əməkdaşlıq mədəni irsin qorunmasının hüquqi əsası olmaqla yanaşı, bu və ya digər dövlətin mədəni irsinə qarşı yönələn təhlükələrdən qorunmanın təmin edilməsində ən təsirli vasitə kimi və eyni zamanda qorumanın məqsədi kimi çıxış edir.

Bütün sahələrdə olduğu kimi mədəni isin qorunması sahəsində də beynəlxalq münasibətlər ikitərəfi və çoxtərəfli əməkdaşlıq formasında müvafiq beynəlxalq sənədlərlə tənzimlənir. Ölkələr beynəlxalq təşkilatlara üzv olmaq, beynəlxalq konvensiya və digər sənədlərə qoşulmaq, həmçinin ikitərəfli sazişlər imzalamaqla mədəni irsin qorunması sahəsindəki münasibətlərini təznimləyir və üzərlərinə müvafiq beynəlxalq öhdəliklər götürürlər.

Mədəni irsin qorunmasını tənzimləyən əsas beynəlxalq sənədlər aşağıdakılardır:

- Tarixi Abidələrin Bərpası üzrə 1931-ci il tarixli Afina Xartiyası;
- 19 dekabr 1954-cü il tarixli Avropa Mədəniyyət Konvensiyası (Azərbaycan Respublikası 22 aprel 1997-ci il tarixində qoşulmuşdur);
- Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında 1954-cü il tarixli Haaqa Konvensiyası (Azərbaycan Respublikası 1993-cü ildə qoşulmuşdur) və ona 1-ci və 2-ci Əlavə Protokollar;
- Abidələr və tarixi yerlərin konservasiyası və bərpası üzrə 1964-cü il tarixli Beynəlxalq Xartiya (Venesiya Xartiyası);
- 14 noyabr, 1970-ci il tarixli "Mədəniyyət sərvətlərinin qanunsuz olaraq gətirilməsinin, çıxarılmasının və onların üzərində mülkiyyət hüququnun başqasına verilməsinin qadağan edilməsinə və qarşısının alınmasına yönəldilmiş tədbirlər haqqında" Konvensiya

(Azərbaycan Respublikası 30 sentyabr 1997-ci il tarixində qoşulmuşdur);
- UNESCO-nun 16 noyabr 1972-ci il tarixli "Ümumdünya mədəni və təbii irsin qorunması haqqında" Konvensiyası (Azərbaycan Respublikası 06 dekabr 1993-cü il tarixində qoşulmuşdur);
- 9 sentyabr 1886-cı il tarixli Ədəbi və bədii əsərlərin qorunması haqqında Bern Konvensiyası (1979-cu ildə dəyişdirilmiş 1971-ci il 24 iyul tarixli Paris aktı) (Azərbaycan Respublikası 27 noyabr 1998-ci il tarixində qoşulmuşdur);
- 16 yanvar 1992-ci il tarixli "Arxeoloji irsin qorunması haqqında" Avropa Konvensiyası (Azərbaycan Respublikası 20 oktyabr 1999-cu il tarixində qoşuluşdur);
- Beynəlxalq Xüsusi Hüququ Unifikasiya İnstitutunun (YUNİDRUA) "Oğurlanmış, yaxud qanunsuz çıxarılmış mədəniyyət sərvətləri haqqında" 24 iyun 1995-ci il tarixli Roma Konvensiyası (Azərbaycan Respublikası 24 mart 2000-ci il tarixində qoşulmuşdur);
- UNESCO-nun 17 oktyabr 2003-cü il tarixli "Qeyri-maddi mədəni irsin qorunması haqqında" (Azərbaycan Respublikası 02 oktyabr 2006-cı il tarixində qoşulmuşdur);
- 20 oktyabr 2005-ci il tarixli "Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında" Paris Konvensiyası (Azərbaycan Respublikası 26 noyabr 2009-cu il qoşulmuşdur);
- Avropa Şurasının "Mədəni irsin cəmiyyət üçün əhəmiyyəti haqqında" 2005-ci il Çərçivə Konvensiyası (Faro Konvensiyası) (Azərbaycan Respublikası hələ ki, bu sənədə qoşulmamışdır);
- UNESCO-nun Arxeoloji qazıntıların beynəlxalq prinsiplərini müəyyən edən 5 dekabr 1956-cı il Tövsiyəsi.

Mədəni irsin qorunmasında beynəlxalq tənzimetmə mexanizmi kimi beynəlxalq təşkilatların rolu böyük əhəmiyyət kəsb edir. İstər universal, istərsə də regional beynəlxalq təşkilatlar bu sahədə öz fəaliyyətlərini durmadan gücləndirirlər. Bu sahədə əsas beynəlxalq təşkilatlar aşağıdakılardır:

- UNESCO;
- ICOMOS;
- ICCROM;
- ICOM;
- WMF;
- ICESCO;
- TURKSOY;
- Europa Nostra.

UNESCO (United Nations Educational, Scientific and Cultural Organization) Birləşmiş Millətlər Təşkilatının (BMT) Elm, Təhsil və Mədəniyyət məsələləri üzrə ixtisaslaşmış qurumudur. Təşkilat 16 noyabr 1945-ci ildə yaradılmış, 4 noyabr 1946-cı ildə fəaliyyətə başlamışdır. BMT-yə üzv olan dövlətlər eyni zamanda UNESCO-nun da üzvü ola bilərlər. UNESCO-nun mənzil qərargahı Fransanın paytaxtı Parisdə yerləşir.

UNESCO bilavasitə mədəni irsin qorunması ilə məşğul olan təşkilatdır. Təşkilatın Nizamnaməsinin Preambulasında qeyd olunur ki, insan ləyaqətini qorumaq üçün mədəniyyət və təhsil ədalət, azadlıq və sülh əsasında bütün insanlar arasında geniş yayılmalıdır, beynəlxalq sülhə və bəşəriyyətin rifahı isə bütün xalqların təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlığı yolu ilə təmin edilməlidir. UNESCO-nun əsas məqsədi irqindən, cinsindən, dilindən və dinindən asılı olmayaraq bütün xalqlar üçün Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində elan

edilmiş ədalətə, qanunçuluğa və insan hüquqlarına, habelə əsas azadlıqlara hamılıqla hörmətin təmin edilməsi naminə xalqlar arasında təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlığı genişləndirməklə sülhün və təhlükəsizliyin möhkəmləndirilməsinə yardım göstərməkdir. Təşkilat öz fəaliyyətində mədəniyyətlərarası ünsiyyətin əsas baza elementi ola biləcək mədəni tolerantlıq prinsipini əsas götürür.

UNESCO öz fəaliyyətini rəhbər (Baş Konfrans və İcraiyyə Şurası) və icraedici (Katiblik) orqanları vasitəsilə həyata keçirir. Katibliyin strukturuna Baş direktor, proqram sektorları, proqram dəstəyi sektorları, mərkəzi xidmət, yerlərdəki bölmələr, İnstitut və UNESCO mərkəzləri daxildir. XXI əsrin əvvəllərindən başlayaraq UNESCO mədəni müxtəlifliyin qorunub saxlanılması ilə bağlı uzunmüddətli və qısamüddətli strategiyanın həyata keçirilməsinə başlamışdır. Bu strategiya mədəni plüralizmin və mədəniyyətlərarası dialoqun təşviqini, ümumdünya maddi və qeyri-maddi mədəni irsin qorunmasını, dil müxtəlifliyinin qorunması və itməkdə olan dillərin dəstəklənməsi, xalq yaradıcılığı, mədəniyyət məhsullarının istehsalı, mədəni turizmin inkişafı, mədəniyyət kadrlarının hazırlığı və s. özündə ehtiva edən proqram və layihələrin həyata keçirilməsini nəzərdə tutur.

Təşkilat öz məqsədləri çərçivəsində beynəlxalq aktlar qəbul edir. Bu qəbildən olan bir sıra Konvensiyalar vardır ki, bilavasitə mədəniyyət məsələləri ilə bağlıdır. Onlar arasında UNESCO-nun "Ümumdünya Mədəni və Təbii İrsin Qorunması haqqında 1972-ci il Konvensiyası" xüsusi əhəmiyyət daşıyır. Azərbaycan Respublikası Konvensiyaya 06 dekabr 1993-cü il tarixində qoşulmuşdur. Bu sənədə əsasən unikal xarakter daşıyan yüzlərlə mədəniyyət və təbiət abidələri Təşkilat tərəfindən qorunur. Sənəddə mədəni və təbii irsin bəzi dəyərlərinin müstəsna maraq kəsb etdiyi və ona görə də bütün bəşəriyyətin ümumdünya irsinin bir hissəsi kimi qorunub saxlanmalı olduğu nəzərdə tutulur.

Konvensiyada mədəni irs dedikdə abidələr (memarlıq, monumental heykəltəraşlıq və boyakarlıq əsərləri, arxeoloji xarakterli ünsürlər və ya strukturlar, kitabələr, mağara məskənləri və tarix, incəsənət, yaxud elm baxımından görkəmli universal dəyərə malik ünsür qrupları), ansambllar (memarlığı, peyzajla vəhdəti və ya əlaqəsi tarix, incəsənət, yaxud elmi baxımdan görkəmli universal dəyərə malik əlahiddə və ya birləşdirilmiş tikili qrupları) və görkəmli yerlər (insan əlinin əməli, yaxud insan və təbiətin birgə əsəri, eləcə də, diqqətəlayiq arxeoloji yerlər daxil olmaqla, tarix, estetika, etnologiya və ya antropologiya baxımından görkəmli universal dəyərə malik zonalar) başa düşülür.

Konvensiya hər bir tərəf-dövlətin üzərinə ərazisində yerləşən mədəni irsin aşkara çıxarılmasını, mühafizə edilməsini, qorunub saxlanmasını, populyarlaşdırılmasını və gələcək nəsillərə çatdırılmasını təmin etmək öhdəliyi qoyur. Bu məqsədlə o, həm mövcud ehtiyatlardan maksimum istifadə etmək yolu ilə öz səyləri vasitəsilə, həm də, lazım gəldikdə, beynəlxalq yardım və əməkdaşlıq (maliyyə, bədii, elmi və texniki baxımdan) vasitəsilə hərəkət etməyə çalışmalıdır. Hər bir dövlət ərazisində yerləşən mədəni irsi özünəməxsus şəraitdə mühafizəsini, konservasiyasını və mümkün qədər fəal populyarlaşdırılmasını təmin etməli, ehtiyac yarandıqda digər üzv dövlətlərə bu sahədə yardım etməli, onların ərazisindəki mədəni irsə birbaşa, yaxud dolayısı ilə xələl gətirə bilən hansısa qərəzli hərəkət etməməlidir.

Konvensiyaya əsasən ümumdünya mədəni və təbii irsinin beynəlxalq mühafizəsi dedikdə tərəf-dövlətlərin bu irsi qoruyub saxlamaq və üzə çıxarmaq sahəsində göstərdikləri səylərə dəstək məqsədilə beynəlxalq əməkdaşlıq və yardım sistemi yaradılması nəzərdə tutulur. Bu məqsədlə UNESCO yanında ümumi görkəmli əhəmiyyətə malik mədəni və təbii irsin mühafizəsi üzrə

“Ümumdünya İrs Komitəsi” adlandırılan hökumətlərarası komitə təsis edilmişdir.

Komitə dövlətlərin Konvensiyanın müddəalarına müvafiq olaraq təqdim etdikləri siyahı əsasında özünün müəyyən etdiyi meyarlara uyğun olaraq, görkəmli universal dəyərə malik mədəni və təbii irs nümunələrinin siyahısını “Ümumdünya İrs Siyahısı” adı ilə tərtib edir. Komitə, həmçinin, Ümumdünya irsi siyahısında olan, xilas edilməsi üçün xeyli iş tələb olunan və bu Konvensiya çərçivəsində yardım istənilən dəyərləri “Təhlükədə olan Ümumdünya İrs Siyahısı”na daxil edir.

Bu siyahıya yalnız ciddi və konkret təhlükələrin (məsələn, güclənməkdə olan dağıntı nəticəsində yox olma, iri ictimai, yaxud özəl layihələrin həyata keçirilməsi, şəhərlərin və turizmin sürətli inkişafı, təyinatının və ya mülkiyyət hüququnun dəyişməsi ilə bağlı dağıdılma səbəbi müəyyən olmayan ciddi zədələnmə, hər hansı səbəbdən baxımsızlıq, təbii fəlakətlər və kataklizmlər, silahlı münaqişə qorxusu, böyük yanğınlar, zəlzələlər, sürüşmələr, vulkan püskürmələri, suyun səviyyəsinin dəyişməsi, daşqınlar, qabarmalar) təhdid etdiyi mədəni və təbii irs dəyərləri daxil edilə bilər.

Komitə öz fəaliyyətində bu Konvensiyanın məqsədləri ilə analoji məqsədlər daşıyan beynəlxalq və milli, hökumət və qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq edir, öz proqram və layihələrini həyata keçirmək üçün, digər beynəlxalq birliklərin, dövlət orqanlarının və özəl orqanların və ayrı-ayrı şəxslərin yardımından istifadə edir.

Təşkilatın qəbul etdiyi digər bir mühüm sənəd “Mədəni Özünüifadə Müxtəlifliyinin Qorunması və Təşviqi haqqında” 2005-ci il Konvensiyasıdır. Konvensiyaya görə mədəniyyət zaman və məkan dəyişdikcə müxtəlif formalar alır və bu müxtəliflik bəşəriyyəti təşkil edən xalqların və cəmiyyətlərin mədəni özünüifadə tərzlərinin və özünəməxsusluqlarının unikallığında və müxtəlifliyində öz əksini tapır. Mədəniyyət bütövlükdə sosial birlik üçün böyük əhəmiyyətə və konkret olaraq qadınların cəmiyyətdə rolunu və statusunu artırmaq potensialına malikdir.

“Mədəni müxtəliflik” dedikdə, müxtəlif qrupların və cəmiyyətlərin mədəniyyətlərinin öz ifadəsini tapdığı müxtəlif formalar nəzərdə tutulur. Mədəni müxtəliflik təkcə bəşəriyyətin mədəni irsinin ifadə olunduğu, artırıldığı və ötürüldüyü müxtəlif mədəni özünüifadə vasitələrinin tətbiqi ilə deyil, həmçinin hansı vəsaitlərdən və texnologiyalardan istifadə edilməsindən asılı olmayaraq, bədii yaradıcılığın müxtəlif növlərinin, mədəni özünüifadə məhsullarının istehsalının, yayılmasının, paylaşılmasının və onlara yiyələnmənin köməyi ilə meydana gəlir.

“Mədəni özünüifadə” dedikdə isə, ayrı-ayrı fərdlərin, qrupların və ya cəmiyyətlərin yaradıcılığının nəticəsi olan və mədəni məzmun daşıyan özünüifadə formaları nəzərdə tutulur. “Qorunma” dedikdə, mədəni özünüifadə müxtəlifliyinin qorunub saxlanılması, mühafizəsi və inkişaf etdirilməsinə yönəlmiş tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

Azərbaycan Respublikası Konvensiyaya 26 noyabr 2009-cu il tarixində qoşulmuşdur. Konvensiyanın mübahisələrin həlli ilə bağlı 25-ci maddəsinin 3-cü bəndində nəzərdə tutulan barışdırma prosedurunu tanımır. Bununla əlaqədar Azərbaycan Respublikasının Bəyanatlarında deyilir ki, Ermənistan Respublikası tərəfindən işğal olunmuş ərazilərdə Konvensiyanın müddəalarının həyata keçirilməsinə həmin ərazilər işğaldan azad olunanadək və işğalın nəticələri tam aradan qaldırılanadək təminat vermək iqtidarında deyildir. Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində işğalın baş verdiyi tarixdən etibarən mədəni özünüifadələrin dağıdılmasına görə bütün məsuliyyət işğalçı Ermənistan Respublikasının üzərinə düşür.

Konvensiyanın tətbiqinə təkan vermək, yerinə yetirilməsinə nəzarət etmək, onun məqsədlərini

təşviq etmək və s. məqsədlərlə Mədəni Özünüifadə Müxtəlifliyinin Qorunması və Təşviqi üzrə Hökumətlərarası Komitə yaradılmışdır. Konvensiya Tərəflərinin 2019-cu ildə UNESCO-nun Baş qərargahında baş tutan Konfransında 2019-2023-cü illər üçün keçirilmiş seçkilərdə Azərbaycan Şərqi Avropa qrupundan öz namizədliyini irəli sürmüş və Komitəyə 4 illik üzv seçilmişdir.

Mədəni irsin qorunması sahəsində digər bir mühüm sənəd Abidələr və tarixi yerlərin konservasiyası və bərpası üzrə Beynəlxalq Xartiyadır (Venesiya Xartiyası). Venesiya Xartiyasından əvvəl Beynəlxalq Muzeylər Bürosu tərəfindən 1931-ci ildə Afinada təşkil olunmuş konfransın nəticələrindən başqa, mədəni irs abidələrinin qorunması və bərpası ilə bağlı xüsusi birlik və ya beynəlxalq səviyyədə razılaşdırılmış təlimatlar toplusu mövcud deyildi.

İkinci Dünya Müharibəsinin acı nəticələri irsin qorunması və bərpasının vacibliyini önə çıxarmışdı. Getdikcə artan məlumatlılıq və tənqidi araşdırmalar nəticəsində bir sıra mürəkkəb və çoxşaxəli problemlərin ortaya çıxması, həmçinin mövcud prinsiplərin genişləndirilməsi ehtiyacı Afina Xartiyasının prinsiplərinə yenidən baxılması zərurətini yaratmışdı.

UNESCO 1957-ci ilin mayında Parisdə keçirilən Tarixi Abidələr üzrə Memar və Texniklərin Birinci Beynəlxalq Konqresinə sponsorluq etmiş və bütün ölkələrə, hətta ərazisində abidə olmasa belə, tarixi abidələrin mühafizəsi üçün təşkilatlar yaratmağı tövsiyə etmişdi. Məhz bu görüşdə Venesiya Konqresinin çağırılması elan edilmişdi. 1964-cü il mayın 31-də Venesiyada Tarixi Abidələrin Memar və Texniklərinin II Beynəlxalq Konqresi baş tutur. Bu Konqresin birinci qətnaməsi kimi rəsmi adı "Beynəlxalq Bərpa Xartiyası" olan Venesiya Xartiyası qəbul edilir. Venesiya Xartiyası tarixi abidələrin konservasiyası və bərpası üçün beynəlxalq qaydaları müəyyən edən sənəddir. Mədəni irsin mühafizəsi üzrə mütəxəssislər tərəfindən tərtib edilmiş bu sənəd mədəni irsin mühafizəsi və bərpası üçün beynəlxalq çərçivəni təmin edən prinsiplər toplusudur.

Həmin Konqresdə UNESCO tərəfindən irəli sürülmüş ikinci qətnamədə isə Abidələr və Tarixi Yerlər üzrə Beynəlxalq Şuranın - ICOMOS-un yaradılması haqqında təşəbbüs irəli sürülmüş və qurum 22 iyun 1965-ci ildə təsis edilmişdir.

ICOMOS (International Council on Monuments and Sites) - UNESCO yanında Abidələr və Tarixi Yerlər üzrə Beynəlxalq Şura bütün dünyada mədəni irs obyektlərinin mühafizəsi və qorunması ilə məşğul olan beynəlxalq qeyri-hökumət təşkilatıdır. Qurumun əsas məqsədi abidələrin, tikili mühitlərin və mədəni irs yerlərinin konservasiyası, qorunması, istifadəsi və təkmilləşdirilməsini təşviq etmək, həmçinin dünyada mədəni irs abidələrinin bərpası və konservasiyası işlərinin elmi əsaslarını gücləndirməkdir. O, mədəni irs yerlərinin maddi və qeyri-maddi elementlərinin qorunmasında elmi texnika, nəzəriyyə və metodologiyanın tətbiqinə həsr olunmuş yeganə dünya miqyasında qeyri-hökumət təşkilatıdır. Şuraya 130-dan çox ölkədən 12 mindən çox üzv, 250 çox İnstitusional Üzv, 110-dan çox ICOMOS Milli Komitələri və 30-dan çox ICOMOS Beynəlxalq Elmi Komitələri və İşçi Qrupları daxildir.

ICOMOS-un mühüm rollarından biri onun UNESCO ilə əməkdaşlığıdır. ICOMOS UNESCO-nun Ümumdünya Mədəni və Təbii İrsin Mühafizəsi haqqında Konvensiyasının yazılmasında iştirak etmiş və bu sənəddə Məsləhətçi Orqan adlandırılmışdır. Ümumdünya İrs Komitəsinin Məsləhətçi Orqanı kimi Qurumun fəaliyyətinin mərkəzində UNESCO-nun Ümumdünya İrs Konvensiyasının həyata keçirilməsi durur. O, Ümumdünya İrs Komitəsinə, UNESCO-nun Ümumdünya İrs Mərkəzinə və Tərəf Dövlətlərə Ümumdünya İrs Konvensiyasının həyata keçirilməsi ilə bağlı

ekspert rəhbərliyi edir, Tərəf Dövlətlərin Ümumdünya İrs Siyahısına salınması üçün təqdim etdikləri mədəni və qarışıq Dünya İrs Yerləri üzrə nominasiyaları nəzərdən keçirir, qiymətləndirir, onların konservasiya və mühafizə statusuna nəzarət edir, bununla bağlı müvafiq məsləhətlər verir, kadr hazırlığı proqramları və seminarlar təşkil edir, hesabatlar, dərsliklər, Tematik Tədqiqatlar dərc etmək və müxtəlif layihələrdə iştirak etməklə Dünya İrs resurslarını genişləndirir.

ICOMOS-un fəaliyyətində Milli Komitələrin rolu mühüm əhəmiyyət kəsb edir. ICOMOS Əsasnaməsinin 3-cü maddəsinə uyğun olaraq, Milli Komitələr həm beynəlxalq, həm də milli səviyyədə mədəni irs yerlərinin mühafizəsi, bərpası, sağlamlaşdırılması və təkmilləşdirilməsini təşviq etmək məqsədi daşıyır. Milli Komitələr ayrı-ayrı şəxslərin və qurumların nümayəndələrinin məlumat və fikir mübadiləsi aparmaq üçün görüşə biləcəyi bir forum rolunu oynayır. Bu mübadilələr ICOMOS-un prinsipləri və doktrinasını, eləcə də ölkədən ölkəyə dəyişən mədəni irs yerləri ilə bağlı texniki, elmi, hüquqi və inzibati məsələləri əhatə edir. 2021-ci ildə Azərbaycan üzrə də Milli Komitə “ICOMOS Azerbaijan” yaradılmışdır və yuxarıda göstərilən istiqamətlər üzrə fəaliyyət göstərir.

ICOMOS-un fəaliyyətinin mühüm nəticələri ilə yanaşı mədəni irsə verdiyi ən gözəl töhfə “18 Aprel Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü”dür. ICOMOS həmişə mədəni irsin təbliği və qeyd olunması yollarını axtarıb. Bir çox ölkə və regionlar hər ilin sentyabr ayında keçirilən Avropa İrs Günləri kimi xüsusi günlər və tədbirlər təsis etsə də, dünya miqyasında qeyd edilən belə bir xüsusi gün mövcud olmayıb. 1982-ci il aprelin 18-də Hammametdə keçirilən ICOMOS-un Tunis simpoziumu və büro iclası zamanı hər il bütün dünyada bir günün “İrs Günü” kimi qeyd olunması ideyası irəli sürülmüşdür. ICOMOS-un İdarə Heyəti bu təşəbbüsü təsdiqləmiş və həmin günün qeyd olunması ilə bağlı praktiki məsləhətlər vermişdir. Beləliklə “Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü” təsis edilmişdir. 1983-cü ildə UNESCO-nun Baş Konfransının 22-ci sessiyasında bu gün rəsmi olaraq qəbul edilmiş və qeyd olunmağa başlamışdır. 18 aprel bütün ICOMOS şəbəkəsi və digər irs peşəkarları və həvəskarları üçün mədəni irsi birlikdə müdafiə etmək və qeyd etmək, bu yolda ortaq məqsədlər naminə bir araya gəlmək üçün gözəl bir fürsətə çevrilmişdir. Hər il Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü fərqli bir mövzuya həsr olunur, lakin ICOMOS üzvləri öz ölkələrində və ya regionlarında irs məsələlərini işıqlandırmaq üçün özlərinə məxsus aktual mövzunu seçə bilərlər. Aprelin 18-i yalnız yerli və milli irsin qeyd olunduğu gün deyil, həm də bütün dünyada mədəni irsin möhkəmləndirilməsi və qorunması üçün beynəlxalq həmrəylik günüdür.

ICOMOS öz fəaliyyətində digər bir Məsləhətçi Qurum olan ICCROM (International Centre for the Study of the Preservation and the Restoration of Cultural Property) - Mədəni Mülkiyyətin Mühafizəsi və Bərpasının Tədqiqatı üzrə Beynəlxalq Mərkəz ilə sıx əməkdaşlıq edir. Venesiya Xartiyasında qeyd olunduğu kimi, qədim tikililərin qorunması və bərpasında əsas götürülən prinsiplər razılaşdırılmalı və beynəlxalq səviyyədə qəbul edilməlidir ki, hər bir ölkə onları öz mədəniyyəti və ənənələri çərçivəsində planlı şəkildə tətbiq edə bilsin. Məhz bu fundamental prinsipləri hələ ilk dəfə 1931-ci ildə müəyyən etməklə, Afina Xartiyası geniş bir beynəlxalq hərəkata öz töhfəsini vermişdi. Afina Xartiyası milli sənədlərin hazırlanmasına, ICOM və UNESCO tərəfindən görülən bir sıra işlərə, həmçinin ICCROM-un təsis edilməsinə təkan vermişdi. İkinci Dünya Müharibəsindən sonra geniş yayılmış dağıntılar və mədəni sərvətlərin yenidən qurulması zərurəti ICCROM-un yaranmasına ehtiyacı ortaya çıxarmışdı. Buna cavab olaraq 1956-cı ildə UNESCO-nun Yeni Dehlidə keçirilən Baş Konfransının 9-cu Sessiyasında bərpa üsullarını öyrənmək və təkmilləşdirmək üçün hökumətlərarası mərkəzin yaradılması təklifi qəbul edilmiş və beləliklə ICCROM yaranmışdır. İtaliya hökuməti ilə razılaşmadan sonra

Mərkəz 1959-cu ildə Romada təsis edilmişdir. 03 fevral 2002-ci ildən etibarən Azərbaycan Respublikası da təşkilatın üzvüdür.

ICCROM dünyanın hər bir bölgəsində mədəni irsin bütün formalarının qorunmasını təşviq etmək üçün Üzv Dövlətlərinə xidmət edən hökumətlərarası təşkilatdır. O, öz sərhədləri daxilində və ondan kənarda mədəni irsin qorunmasına dəstək göstərmək məqsədilə Üzv Dövlətlərlə əməkdaşlıq edir, beynəlxalq və hökumət səviyyələrində yerli qurumlar və peşəkarlarla işləyir, irsə maraq göstərən yeni nəsil peşəkarları və geniş ictimaiyyəti cəlb edir və məlumatlandırır. Dünyada bu tipli yeganə qurum olan ICCROM kiçik və çevik olduğu üçün Üzv Dövlətlərin ehtiyaclarına tez cavab vermək imkanına sahibdir.

Eyni zamanda, təbiətin mühafizəsi üzrə geniş ekspertlər şəbəkəsinə malik olan ICCROM öz fəaliyyətində UNESCO kimi təşkilatlar, onların Baş Qərargahları, Regional Ofisləri, ICCROM-un Məşvərətçi Orqan olduğu Ümumdünya İrs Komitəsi, ICOMOS, ICOM, ICA və IIC kimi qeyri-hökumət təşkilatları, üzv dövlətlərin elmi institutları və universitetləri ilə rəsmi institusional əməkdaşlıq edir. Alimlər, konservatorlar, muzey kuratorları, abidə menecerləri, arxivçilər, tədqiqatçılar və arxeoloqlar da daxil olmaqla, irsin qorunmasının ön cəbhələrində çalışanlar mühafizə üzrə təlim, məlumat, tədqiqat, əməkdaşlıq və təbliğat sahəsində dünya səviyyəli təşəbbüslərinə görə bilavasitə ICCROM-a etibar edirlər.

ICCROM konservasiya və bərpa üçün innovativ təhsil proqramları, alətlər və materiallar hazırlayır və bütün dünyada konservasiya mütəxəssislərinə müasir peşəkar təlim fəaliyyətləri təşkil edir. ICCROM-un missiyası üzv dövlətləri bütün insanların mənafeyi naminə bütün formalarda mədəni irsi qorumaq üçün ən yaxşı alətlər, biliklər, bacarıqlar və əlverişli mühitlə təmin etməkdir. O, mədəni irsin qorunmasının öyrənilməsi və təşviqi, kritik mühafizə problemlərinin həlli üçün ekspertizanın səfərbər edilməsi və əlaqələndirilməsi, peşəkar cəmiyyətin gücləndirilməsi üçün həyata keçirilən təlim və tədqiqat vasitələrinin təmin edilməsi yolu ilə buna nail olur.

ICCROM mədəni mühafizə institutlarının tədqiqat gündəliyinə təsir edir, bilik mübadiləsini əlaqələndirir və tədqiqatçıların görüşə biləcəyi stimullaşdırıcı və əməkdaşlıq mühiti yaradır; texniki məsləhət, təhsil və təlim təklif etmək və yerlərə səfərlər etmək üçün dünyanın hər yerindən müxtəlif ekspert və qurumları toplamaqla beynəlxalq, regionlararası və elmlərarası əməkdaşlığı təşviq edir; qlobal orqanlardan tutmuş hökumətlərə və icmalara qədər bütün səviyyələrdə mühafizə və bərpa üçün məlumatlılığın artırılmasına və dəstəklənməsinə çalışır; öz Üzv Dövlətlərinə tədris materialları, məlumat, seminarlar və təlim imkanları mübadiləsi vasitəsilə texniki yardım göstərir.

ICCROM dünyanın aparıcı konservasiya kitabxanalarından birinə malikdir. Kitabxana kataloqunda 70-dən çox dildə 120 000-dən çox kitab, hesabat və ixtisaslaşdırılmış jurnal var. O, tarixi yerləri və obyektləri, həmçinin onun illər ərzində apardığı təlim, elmi və sahə fəaliyyətini əks etdirən 200 000-dən çox foto və təsvirdən ibarət kolleksiyaya malikdir. Bundan əlavə, onun rəsmi internet səhifəsində konservasiya və bərpa sahəsində beynəlxalq tədbirlər və təlim imkanları haqqında geniş məlumat verilir.

ICOM (International Council of Museums) – Muzeylərin Beynəlxalq Şurası 1946-cı ildə yaradılmışdır. O, keçmişin və gələcəyin maddi və qeyri-maddi, təbii və mədəni irsin qorunması və təbliğatı fəaliyyətini aparan muzeyləri və muzey peşəkarlarını təmsil edən bir dünya təşkilatıdır. ICOM dizayn, idarəetmə və kolleksiyaların təşkilində muzeylər üçün standartları müəyyən edir. Hazırda ICOM-a 129 ölkədən 57.000-dən çox üzv daxildir. Təşkilat muzey

və irs sahəsində çalışan müxtəlif peşəkarları birləşdirən vahid şəbəkə rolunu oynayır. ICOM UNESCO-da ali "A" kateqoriyalı təşkilat statusuna və BMT-nin İqtisadi və Sosial Şurasında (ECOSOC) məsləhətçi statusa malikdir.

ICOM həmçinin Ümumdünya Əqli Mülkiyyət Təşkilatı (ÜƏMT/WIPO), İnterpol, Mavi Qalxan Beynəlxalq Komitəsi və Ümumdünya Gömrük Təşkilatı ilə əməkdaşlıq edir. Bu, ICOM-un müvafiq beynəlxalq missiyasını həyata keçirməsinə imkan verir. Təşkilatın beynəlxalq missiyalarına mədəni sərvətlərin qeyri-qanuni daşınması ilə mübarizə və fövqəladə hallar zamanı risklərin idarə olunması, həmçinin təbii fəlakət və texnogen qəzalar zamanı dünya irsinin mühafizəsi, mədəniyyət və biliyin təbliği aiddir.

Muzey Etikasının Kodeksi – ICOM-un muzey fəaliyyətində normativ və peşə standartlarını müəyyən edən əsas sənəd hesab olunur. İlk dəfə 4 noyabr 1986-cı ildə Buenos-Ayresdə keçirilən iclasda ICOM-un 15-ci Baş Assambleyası tərəfindən qəbul edilmiş, daha sonra müvafiq düzəlişlər edilmiş "ICOM-un Muzeylər üçün Etik Kodeksi" muzeylər və onların işçiləri üçün minimum peşə təcrübəsi və fəaliyyət standartlarını müəyyən edir. ICOM-un hər bir üzvü təşkilata daxil olarkən bu kodeksə əməl etməyi öhdəsinə götürür.

ICOM-un strukturu 34 Beynəlxalq Komitə və 120 Milli Komitəni əhatə edir. Beynəlxalq Komitələr muzey və irs məsələlərində tədqiqat aparır və muzey ictimaiyyətinə dəstək verir. Milli Komitələr Baş Katiblik və üzv ölkələr arasında əlaqələndirici rolu oynayır, təşkilatın maraqlarının öz ölkələrində idarə olunmasını təmin edir, öz üzvlərini ICOM-da təmsil edir və proqramların həyata keçirilməsinə töhfə verirlər. Beynəlxalq Muzeylər Şurasının Azərbaycan Milli Komitəsi 1993-cü ildə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən təsis edilmişdir.

ICOM-un təşəbbüsü ilə 1977-ci ildə "Beynəlxalq Muzeylər Günü" təsis edilmişdir. Bu gün hər il 18 may tarixində müəyyən deviz altında dünyada qeyd olunur.

WMF (World Monuments Fund) – Dünya Abidələr Fondu insanların həyatını zənginləşdirmək, mədəniyyətlər və icmalar arasında qarşılıqlı anlaşma yaratmaq üçün dünyanın ən qiymətli məkanlarını qorumağa həsr olunmuş aparıcı müstəqil təşkilatdır. Fondun fəaliyyəti sahəvi işlər, təbliğat, qrantların verilməsi, təhsil, təlim və digər vasitələrlə tarixi memarlıq və mədəni irs obyektlərinin qorunmasına yönəlib. Baş ofisi Nyu-York şəhərində yerləşir, əlavə olaraq Kamboca, Çin, Fransa, Hindistan, Peru, Portuqaliya, İspaniya və Birləşmiş Krallıqda ofisləri və tərəfdaşları fəaliyyət göstərir.

1965-ci ildən etibarən, beynəlxalq standartlara uyğun olaraq dünyanın 112 ölkəsində 700-dən çox abidənin qorunub saxlanılması işini həyata keçirən qlobal mütəxəssis komandası müxtəlif mədəni irs nümunələrini qoruyur. Yerli icmalar, donorlar və hökumətlərlə əməkdaşlıq edən Fond iqlim dəyişikliklərinə uyğunlaşma, inklüziv mədəni irs, balanslı turizm və böhran sonrası bərpa kimi sahələrdə həll yolları tapmaq üçün mədəni irsdən istifadə edir. Fond keçmişin potensialından istifadə edərək daha davamlı və inklüziv bir cəmiyyətin qurulmasına töhfə verməyə çalışır. 2025-ci ildə təşkilatın 60 illiyi qeyd edilir.

Fond hər iki ildən bir "World Monuments Watch" (Dünya Abidələrinə Baxış) siyahısını dərc edir. Bu proqram "American Express"in təşəbbüsü və sponsorluğu ilə ilk dəfə 1996-cı ildə tətbiq edilmişdir. "Baxış" proqramı beynəlxalq diqqəti baxımsızlıq, vandalizm, silahlı münaqişə, kommersiyanın inkişafı, təbii fəlakətlər və iqlim dəyişikliyi səbəbi ilə təhlükə altında olan mədəni irs obyektlərinə yönəltməyi hədəfləyir. Proqram mədəni irs və tarixi yerlər haqqın-

da məlumatlılığın artırılması və qorunmalarına dəstək məqsədi daşıyır.

Namizədliyi irəli sürülən abidələr siyahıya daxil edilmək üçün yerli hakimiyyət orqanları, beynəlxalq və yerli mühafizə qrupları, icma əsaslı təşkilatlar, peşəkarlar və fərdi şəxslər tərəfindən təqdim oluna bilər. Siyahıya dünya və dini memarlıq nümunələri, arxeoloji abidələr, təbii landşaftlar, şəhər mənzərələri və hər dövrə aid tarixi abidələr daxil edilə bilər. Siyahıya son qərarı ICOMOS və müstəqil beynəlxalq ekspertlər qrupu verir.

Azərbaycanın Xınalıq kəndi 2007-ci ildə bu siyahıya daxil edilmişdir. Quba ilə Xınalıq arasında yol çəkilməsi, kənddə aparılan təmir-bərpa işləri və artan turist axını kəndin unikal xarakterini təhlükə altına almışdı. Fond bu təhlükəni tanımaqla yanaşı, siyahıya daxil etməklə Xınalığın xarici əlaqələrinin unikal dəyərlər qorunmaqla inkişafına töhfə verəcəyini bəyan etmişdir.

2024-cü ildə "Miras" İctimai Birliyinin təşəbbüsü ilə İrəvanın Təpəbaşı (Kond) məhəlləsinin "Baxış" siyahısına salınması üçün müraciət olunmuş, lakin qəbul edilməmişdir. Bu qədim Azərbaycan məhəlləsi ermənilər tərəfindən tamamilə məhv edilmək təhlükəsi ilə üz-üzədir və Azərbaycan xalqına məxsus mədəni irs bu ərazidə sistematik şəkildə dağıdılır və saxtalaşdırılır.

Bu günə qədər Fond "Baxış" proqramındakı 350-yə yaxın yer üzrə layihələrə 120 milyon dollardan çox töhfə verib. Bundan əlavə, əlavə 300 milyon dollar digər mənbələrdən cəlb edilmişdir. 2025-ci il siyahısında iqlim dəyişikliyi, turizm, münaqişə və təbii fəlakət kimi problemlərlə üzləşən 25 tarixi məkan təqdim edilib. İlk dəfə olaraq Yerin təbii peyki olan Ay da siyahıya daxil edilib.

Fond, eyni zamanda, xüsusi ərazilərdə mədəni irsin qorunmasına yönəlmiş fərdi layihələri əhatə edən xüsusi təşəbbüslər də həyata keçirir.

ICESCO (Islamic World Educational, Scientific and Cultural Organization) – İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı, İslam Əməkdaşlığı Təşkilatı nəzdində fəaliyyət göstərən, İslam ölkələri üzrə təhsil, elm və mədəniyyət məsələləri ilə məşğul olan və üzv dövlətlər arasında əlaqələrin möhkəmlənməsinə xidmət edən beynəlxalq qurumdur. Təşkilat 25–28 yanvar 1981-ci il tarixində Səudiyyə Ərəbistanı Krallığının Məkkeyi-Mükərrəmə şəhərində keçirilən Üçüncü İslam Zirvəsi Konfransı çərçivəsində təsis edilmişdir.

Təşkilata 4 regiondan – Afrika, Ərəb, Asiya və Latın Amerikası – 53 üzv-dövlət daxildir. Azərbaycan Respublikası 1991-ci ildən etibarən ICESCO-nun üzvüdür. ICESCO-nun mənzil qərargahı Mərakeş Krallığının Rabat şəhərində yerləşir.

Təşkilatın əsas hədəfləri aşağıdakılardır:

- Təhsil, elm, mədəniyyət, kommunikasiya, tətbiqi elmlər və yüksək texnologiyalar sahələrinin inkişaf etdirilməsi;
- Üzv dövlətlər arasında əməkdaşlığın gücləndirilməsi, təşviqi və dərinləşdirilməsi;
- Xalqlar arasında anlaşmanın möhkəmləndirilməsi;
- Dünyada sülh və təhlükəsizliyin bərqərar olunmasına töhfə vermək;
- İslamın və İslam mədəniyyətinin düzgün simasını təqdim etmək;
- Sivilizasiyalar, mədəniyyətlər və dinlər arasında dialoqu təşviq etmək;
- Ədalət və sülh mədəniyyəti dəyərlərinin, azadlıq və insan hüquqları prinsiplərinin İslam mədəniyyəti perspektivinə uyğun yayılmasına çalışmaq;
- Mədəni qarşılıqlı əlaqələri və mədəni müxtəlifliyin təzahürlərini dəstəkləmək.

2019-cu ildə ICESCO tərəfindən «İslam Mədəni İrsi İli" elan olunmuşdur. Bu təşəbbüslə təşkilat üzv ölkələri daha çox abidəni UNESCO-nun Dünya İrsi Siyahısına daxil etməyə çağırmışdır. Eyni zamanda ICESCO, münaqişə zonalarında yerləşən tarixi və mədəni obyektlərin bərpası ilə də fəal şəkildə məşğul olur. Təşkilat İslam mədəni irsinin qorunması və təbliğində, xüsusilə münaqişələrdən zərər çəkmiş bölgələrdə, mühüm beynəlxalq tərəfdaş rolunu oynayır.

TURKSOY – Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı türk dünyasında qurulan ilk beynəlxalq əməkdaşlıq təşkilatıdır. 1993-cü ildə Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan və Türkiyə Respublikalarının mədəniyyət nazirləri tərəfindən imzalanan anlaşma ilə yaradılmışdır. Daha sonra Şimali Kipr Türk Respublikası, Rusiya Federasiyası daxilindəki Tatarıstan, Başqırdıstan, Altay, Saha (Yakut), Tuva və Xakasiya Respublikaları, eləcə də Moldovaya bağlı olan Qaqauz Yeri müşahidəçi üzv olaraq təşkilata qoşulmuşdur. Bu müşahidəçilər əsas üzvlərlə eyni hüquq və səlahiyyətlərə, o cümlədən bərabər səsvermə hüququna malikdirlər.

Təşkilatın əsas məqsədləri türk dilində danışan xalqlar, ölkələr və etnik qruplar arasında mədəni əlaqələrin inkişaf etdirilməsi, türk mədəniyyət nümunələrinin araşdırılması, öyrənilməsi, qorunması və dünyaya tanıdılmasıdır. Eyni zamanda türk xalqlarının mədəniyyətində tarixi, siyasi və coğrafi səbəblərlə, eləcə də xarici ölkələrin təsiri ilə yaranmış fərqlərin aradan qaldırılması, türk mədəniyyətinin zərərli təsirlərdən təmizlənməsi və onun öz mənbələrinə qaytarılması TURKSOY-un fəaliyyət istiqamətləri sırasındadır. 2025-ci ildə təşkilatın yaranmasının 32-ci ildönümü qeyd ediləcəkdir.

Europa Nostra (latınca "Bizim Avropa") Avropanın mədəni və təbii irsinin qorunması sahəsində fəaliyyət göstərən vətəndaş cəmiyyətini təmsil edən Ümumavropa Mədəni İrs Federasiyasıdır. Təşkilat UNESCO-da məsləhətçi statusa malik olmaqla yanaşı, Avropa İttifaqı, Avropa Şurası və digər beynəlxalq qurumlarla da sıx əməkdaşlıq edir. 1963-cü il noyabrın 29-da Parisdə yaradılmış bu federasiyanın qərargahı Niderlandın Haaqa şəhərində yerləşir.

Europa Nostra 46 Avropa ölkəsini və Avropa xaricindən 23 ölkəni əhatə edir. Tərkibində 239 Üzv Təşkilat (5 milyondan çox insanı əhatə edən fondlar və birliklər), 100 Assosiativ üzv (dövlət qurumları, yerli idarəetmə orqanları, universitetlər, korporasiyalar) və 1500-dən çox fərdi üzv vardır. Bundan əlavə, təşkilatın 19 ölkədə fəaliyyət göstərən rəsmi ölkə nümayəndəlikləri mövcuddur. Azərbaycanı Europa Nostra-da Azərbaycan Memarlar İttifaqı təmsil edir.

Təşkilatın əsas məqsədləri Avropada mədəni və təbii irsin qorunması və təbliği, irs sahəsində qabaqcıl təcrübələrin paylaşılması, təhlükə altında olan abidələrin mühafizəsi üçün ictimai və siyasi dəstəyin səfərbər edilməsidir. Bu məqsədlə həyata keçirilən ən mühüm proqramlardan biri "7 ən böyük təhlükədə olan Proqram"dır. Hər il məhv olmaq təhlükəsi ilə üzləşən irs nümunələri müəyyənləşdirilir və onların qorunması üçün yerli, milli və Avropa səviyyəsində tərəfdaşlar cəlb olunur.

Təşkilatın digər əsas təşəbbüsü "Avropa İrs Mükafatları / Europa Nostra Mükafatları"dır. Bu mükafatlar 1978-ci ildən təqdim olunmağa başlanmış və 2002-ci ildən etibarən Avropa Komissiyası ilə əməkdaşlıq çərçivəsində həyata keçirilir. Mükafatlar bərpa layihələri, elmi tədqiqat, təhsil, maarifləndirmə və könüllülük sahəsində irsə xidmət edən şəxsləri və təşəbbüsləri təltif edir. Mükafatlar yalnız Avropa İttifaqının Creative Europe proqramına qoşulmuş üzv ölkələrə aiddir. Digər ölkələr isə yalnız Europa Nostra Mükafatına müraciət edə bilirlər. Layihələr müstəqil beynəlxalq münsiflər heyəti tərəfindən qiymətləndirilir. 2002-ci ildən bu yana 34 ölkədən 600-ə yaxın layihə mükafat qazanmışdır.

**Azərbaycan və beynəlxalq əməkdaşlıq.** Hər hansı bir dövlətin ərazisində yerləşən mədəni irs nümunələrinin məhv edilməsi eyni zamanda dünya mədəni irsinə zərər vurulması deməkdir. Qədim tarixə malik olan və minilliklər boyu müxtəlif sivilizasiyalara ev sahibliyi etmiş Azərbaycan, mədəni irsinin zənginliyi baxımından dünya ölkələri arasında xüsusi yer tutur. Azərbaycanın mədəniyyət zənginliyi yalnız milli deyil, həm də ümumbəşəri dəyər kimi dünya mədəniyyətinin zənginləşməsinə mühüm töhfə verir. Bu zənginliyi dünyanın ən məşhur muzeylərində - Londonun Viktoriya və Albert Muzeyi, Vaşinqtonun Tekstil və Metropoliten Muzeyləri, Parisin Luvr Muzeyi, Sankt-Peterburqun Ermitaj Muzeyi, eləcə də Vyana, Roma, Berlin, İstanbul, Tehran və Qahirə kimi şəhərlərin muzeylərində nümayiş olunan Azərbaycan mənşəli mədəni irs nümunələri bir daha sübut edir.

Tarixən formalaşmış bu zəngin mədəni irs bu gün Azərbaycan dövləti tərəfindən həm milli, həm də beynəlxalq səviyyədə qorunur. Mədəniyyətin, xüsusən də mədəni irsin qorunması və təbliği istiqamətində beynəlxalq əməkdaşlığın genişləndirilməsi Azərbaycan Respublikasının dövlət siyasətinin əsas prioritetlərindən biridir. Bu yanaşma yalnız milli hüquqi çərçivədə deyil, həm də beynəlxalq tənzimləyici mexanizmlər vasitəsilə reallaşdırılır. Konstitusiya, milli qanunvericilik aktları və tərəfdar çıxılmış beynəlxalq sənədlərlə yanaşı, Azərbaycanın üzv olduğu beynəlxalq təşkilatlar çərçivəsində atılan addımlar da mədəni irsin qorunmasına xidmət edir.

1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan bir çox beynəlxalq təşkilatlara üzv olmuş və bu sahədə çoxtərəfli və ikitərəfli əməkdaşlığı davamlı şəkildə genişləndirmişdir. Mədəni irsin qorunması istiqamətində Azərbaycan Respublikası aşağıdakı əsas fəaliyyət istiqamətlərini həyata keçirir:

- BMT, İƏT, UNESCO, ÜƏMT (WIPO), Ümumdünya Turizm Təşkilatı, Avropa Şurası, Avropa İttifaqı, TÜRKSOY, ICESCO, MDB, GUAM, QDİƏT və digər beynəlxalq təşkilatlarla əməkdaşlıq edərək milli mədəniyyətimizi beynəlxalq səviyyədə təbliğ edir;
- Avropa, Asiya, Amerika, Afrika qitəsində yerləşən dövlətlər, o cümlədən türkdilli ölkələrlə mədəniyyət və turizm sahəsində əməkdaşlığı möhkəmləndirir;
- Ermənilərin Azərbaycana qarşı təcavüzü, Ermənistan-Azərbaycan münaqişəsinin tarixi və hüquqi aspektləri, Azərbaycanın işğal olunmuş ərazilərindəki mədəni irsin məhv edilməsi və daşınan mədəni sərvətlərin talanması barədə beynəlxalq ictimaiyyəti məlumatlandırır;
- Mədəniyyət məhsullarının birgə istehsalını və yayımını təşviq edir;
- Mədəniyyətlərarası dialoqu dəstəkləyir və mədəni müxtəlifliyi təşviq edir;
- Dünya mədəni irsinin qorunması, bərpası və inkişafına töhfə verir;
- Yeni texnologiyalar və qabaqcıl təcrübələrin beynəlxalq səviyyədə mübadiləsini həyata keçirir;
- Xaricdə yaşayan azərbaycanlılarla mədəni əlaqələri inkişaf etdirir, onların mədəniyyət mərkəzləri, fondlar və digər qurumlarının fəaliyyətini dəstəkləyir;
- Xarici dövlətlərin ərazisində yerləşən Azərbaycan xalqına məxsus mədəni irs nümunələrinin aşkarlanması, qorunması və bərpası, həmçinin Azərbaycandan qeyri-qanuni yollarla çıxarılmış mədəni sərvətlərin geri qaytarılması istiqamətində beynəlxalq hüquq normalarına uyğun fəaliyyət göstərir;
- Mədəni irsin qorunması prosesində beynəlxalq təşkilatlar və tərəfdaş dövlətlərin maliyyə, texniki və institusional dəstəyindən istifadə edir.

Son dövrlərdə Azərbaycanın beynəlxalq nüfuzunun artması mədəniyyət və mədəni irs sahəsində beynəlxalq əməkdaşlığın da yüksəlməsinə şərait yaratmışdır. Keçirilən beynəlxalq tədbirlər,

təqdim olunan irs layihələri və dövlətin bu sahəyə ayırdığı xüsusi diqqət nəticəsində Azərbaycan mədəni irsinin dünyada tanınması və qorunması sahəsində mühüm nailiyyətlər əldə olunmuşdur.

Bu istiqamətdə UNESCO ilə əməkdaşlıq xüsusi yer tutur. Azərbaycan Respublikası UNESCO-ya 1992-ci il iyunun 3-də üzv qəbul olunmuşdur. Ümummilli lider Heydər Əliyevin 1993-cü ilin dekabrında Fransa Respublikasına səfəri çərçivəsində UNESCO-nun o zamankı Baş direktoru Federiko Mayorla görüşündən sonra bu əməkdaşlıq daha da intensivləşmişdir. Prezident İlham Əliyevin və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın səyləri nəticəsində bu əlaqələr daha da genişlənmiş və möhkəmləndirilmişdir.

UNESCO ilə əməkdaşlıq çərçivəsində müxtəlif layihələr icra olunmuş, Azərbaycan mədəniyyətinin beynəlxalq aləmdə tanıdılması məqsədilə ciddi addımlar atılmışdır. Prezident Kitabxanasında yerləşdirilən və iki dildə (Azərbaycan və İngilis) təqdim olunan "Azərbaycan – UNESCO əlaqələri" adlı elektron layihə bu sahədə mühüm mənbədir. Burada həm UNESCO haqqında, həm də Azərbaycan-UNESCO əməkdaşlığı ilə bağlı ətraflı məlumat və elektron kitabxana təqdim olunur.

Xüsusilə vurğulanmalıdır ki, 2004-cü ildə Mehriban Əliyevanın UNESCO-nun Xoşməramlı səfiri seçilməsi bu əməkdaşlığın keyfiyyətcə yeni mərhələyə keçməsinə səbəb olmuşdur. Onun təşəbbüs və rəhbərliyi ilə Azərbaycanın bir çox maddi və qeyri-maddi mədəni irs nümunələri UNESCO-nun müvafiq siyahılarına daxil edilmişdir. Bu, Azərbaycanın mədəni irsinin beynəlxalq səviyyədə tanıdılması və qorunması işinə əvəzsiz töhfə vermişdir.

Ümumdünya Maddi-Mədəni İrs Siyahısına daxil olan abidələr:

1. Şirvanşahlar sarayı və Qız qalası ilə birlikdə İçərişəhər Tarixi-Memarlıq Qoruğu (2000);
2. Qobustan Dövlət Tarixi-Bədii Qoruğu (2007);
3. Şəki Xan Sarayı və Şəkinin tarixi mərkəzi (2019);
4. Xınalıq xalqının mədəni landşaftı və "Köç Yolu" marşrutu (2023).

Ümumdünya Təbii İrs Siyahısına daxil olan nümunələr:

1. Hirkan Dövlət Təbiət Yasaqlığı (2019, 2023).

UNESCO-nun İlkin Siyahısına daxil olan abidələr:

1. Suraxanı Atəşgah Məbədi (1998);
2. Naxçıvan Mavzoleyi (1998)
   - Gülüstan türbəsi
   - Möminə Xatun türbəsi
   - Qarabağlar türbəsi
   - Atabəylər Memarlıq Kompleksi.

3. Binəqədi Dördüncü Dövr Fauna və Flora Ehtiyatı (1998);

4. Lökbatan Palçıq Vulkanı (1998);

5. Bakı dağ mərhələsi (1998);

6. Xəzər sahili mühafizə konstruksiyaları (2001)

- Beşbarmaq səddi;

- Gilgilçay səddi;
- Çıraqqala;
- Şabran qalası.
- Dairəvi Mərdəkan qalası;
- Bayıl qalası;
- Nardaran qalası;
- Ramana qalası.

7. Şuşa Tarixi-Memarlıq Qoruğu (2001);
8. Ordubad Tarixi Şəhəri (2001);
9. Azərbaycanın tarixdən əvvəlki yerləri – Azıx və Tağlar mağaraları (2021);
10. Xudafərin körpüləri və əlaqəli yerlər (2021);
11. Qədim Qəbələ şəhəri (2024);
12. Gəmiqaya və Göygöl tarixi-mədəni və təbii kompleksi (2024).

UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil olan irs nümunələri:

1. Azərbaycan muğamı (2008);
2. Azərbaycan aşıq sənəti (2009);
3. Azərbaycanın ənənəvi xalçaçılıq sənəti (2010);
4. Simli musiqi aləti tarın hazırlanması və ifaçılıq sənəti (2012);
5. Qarabağ atüstü oyun ənənəsi – Çovqan (Çövkən) (2013) – Təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısı;
6. Qadın ipək baş örtüyü – kəlağayının ənənəvi hazırlanma və daşınma mədəniyyəti və onun simvolikası (2014);
7. Lahıc misgərlik sənəti (2015);
8. Lavaş, katırma, jupka, yufka – nazik çörəyin hazırlanma və paylaşma mədəniyyəti (2016);
9. Mədəni kimliyin hissəsi olan dolmanın hazırlanma və paylaşma ənənəsi (2017);
10. Kamança simli musiqi alətinin hazırlanması və ifaçılıq sənəti (2017);
11. Yallı (Köçəri, Tənzərə): Naxçıvanın ənənəvi qrup rəqsləri (2018) – Təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısı;
12. Dədə Qorqud / Korkyt ata / Dede Korkut irsi: Dastan mədəniyyəti, xalq nağılları və musiqisi (2018);
13. Nar bayramı – ənənəvi nar festivalı və mədəniyyəti (2020);
14. Miniatür sənəti (2020);
15. Pəhləvanlıq – ənənəvi zorxana oyunları və idman növləri (2022);
16. Molla Nəsrəddin lətifələrinin şifahi ənənəsi (2022);
17. Baramaçılıq və toxuculuq üçün ənənəvi ipək istehsalı (2022);
18. Çay mədəniyyəti: kimliyin, qonaqpərvərliyin və sosial əlaqələrin rəmzi (2022);
19. Balaban (mey) sənətkarlığı və ifaçılıq sənəti (2023);
20. Sədəf sənətkarlığı (2023);
21. İllüminasiya sənəti: Təzhib / Tazhib / Zarhalkori / Tezhip / Naqqoshlik (2023);
22. İftar / Eftari / İftar / İftor və onun sosial-mədəni ənənələri (2023);
23. Azərbaycanda təndir sənətkarlığı və çörəkbişirmə (2024);
24. Novruz bayramı (2024).

Dünya Yaddaşının Beynəlxalq Reyestrinə daxil olan nümunələr:

1. Tibb və əczaçılıq üzrə orta əsr əlyazmaları (2005):
- İbn Sinanın “Tibb elminin qanunu” əsərinin II cildi;
- Rüstəm Curcaninin “Nizamşahın ehtiyatları” əsəri;
- Əbu Əl-Qasım Əl-Zəhrəvinin “əl-Məqalə əs-Sələsun” əsəri.
2. Məhəmməd Füzulinin türkcə (azərbaycanca) “Divan”ının əlyazmasının surəti (2017);
3. Xurşidbanu Natəvanın “Gül dəftəri” – illüstrasiyalı şeirlər albomu (2023).

UNESCO-nun Yaradıcı Şəhərlər Şəbəkəsinə daxil olan irs nümunələri:
1. Şəki şəhəri: “sənətkarlıq və xalq yaradıcılığı” tematikası (2017);
2. Bakı şəhəri: “dizayn” tematikası (2019);
3. Lənkəran şəhəri: “qastronomiya” tematikası (2021).

UNESCO-nun Öyrənən Şəhərər Şəbəkəsinə daxil olan şəhərlər:
1. Bakı (2020);
2. Gəncə (2020);
3. Qəbələ (2020).

Azərbaycan Respublikası TÜRKSOY çərçivəsində mədəniyyət sahəsində əməkdaşlığın inkişafına da xüsusi diqqət yetirir. Təşkilatın yarandığı gündən etibarən bu məqsədlə türk mədəni irsinin qorunması istiqamətində mühüm işlər görülmüş, üzv dövlətlərdə və digər ölkələrdə bir çox tədbirlər təşkil edilmiş və qarşılıqlı iştirak təmin olunmuşdur. Bunlara nümunə olaraq, bir sıra xarici ölkələrdə təşkil olunan müxtəlif mövzularda konfransları, Novruz bayramı konsertlərini, müxtəlif sahələrdən olan mədəniyyət xadimlərimizin xatirə gecələrini və səhnələşdirilən əsərlərini, beynəlxalq teatr və musiqi festivallarını, film nümayişlərini, Şuşa şəhərinin 2023-cü il üçün “Türk Dünyasının Mədəniyyət Paytaxtı” elan edilməsini, həmçinin digər beynəlxalq təşkilatlar çərçivəsində fəaliyyətə verilən dəstəyi göstərmək olar.

Mədəni irsin qorunması sahəsində beynəlxalq əməkdaşlıq və beynəlxalq hüquqi-tənzimetmə metodlarının tətbiqinə zərurət yaradan mühüm bir məqam Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğal olunması və bu ərazilərdə mədəni irs nümunələrimizin məhv edilməsidir. 30 ilə yaxın davam edən işğal dövründə tarix və mədəniyyət abidələrinin əksəriyyəti məhv edilmiş, bir çoxu tarixi-memarlıq və dini təyinatından kənar məqsədlərlə istifadə olunmuş, böyük bir qismi isə saxtalaşdırılmışdır. Əvvəldə adı çəkilən bütün beynəlxalq sənədlərdə, istər öz ərazisində, istərsə də başqa dövlətin ərazisində yerləşən mədəni irs nümunələrini qorumaq dövlətlərin birbaşa vəzifəsi kimi göstərilsə də, bu beynəlxalq hüquqi öhdəlik Ermənistan tərəfindən kobud şəkildə pozulmuşdur.

Dünya əhəmiyyətli 13 (6 memarlıq və 7 arxeoloji), ölkə əhəmiyyətli 242, yerli əhəmiyyətli 434 tarix və mədəniyyət abidəsi, yüzlərlə mədəniyyət müəssisəsi, 4,6 milyon kitab fondu olan 927 kitabxana, 808 mədəniyyət sarayı, klub və mədəniyyət evi, 85 musiqi və rəssamlıq məktəbi, 22 muzey və muzey filialı, 4 rəsm qalereyası, 4 teatr müəssisəsi, 2 konsert müəssisəsi, 8 mədəniyyət və istirahət parkı, o cümlədən qədim körpülər, məbədlər, türbələr, məqbərələr, məscidlər, qədim yaşayış məskənləri, qoruqlar, məzarlıqlar, qədim qəbir daşları, sərdabələr və digər mədəni irs nümunələrimiz erməni vandalizminin qurbanına çevrilmişdir.

Qeyd edək ki, bu statistik məlumatlar tam səhih deyil. Belə ki, bu ərazilərdə işğala qədər abidələrin bir hissəsi qeydə alınsa da, minlərlə tarixi abidə rəsmi qeydiyyata alınmamışdı. Bu da ermənilərə həmin abidələri məhv etmək və ya saxtalaşdıraraq öz adlarına rəsmiləşdirmək üçün imkan yaratmışdı.

Ermənistanın bu beynəlxalq hüquq pozuntusundan danışarkən "Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında" 14 may 1954-cü il tarixli Haaqa Konvensiyasını və onun icra mexanizmi kimi qəbul olunmuş 1-ci Protokolu, problemin həlli istiqamətində yaranan boşluqlar səbəbindən qəbul edilmiş 26 mart 1999-cu il tarixli 2-ci Protokolu xüsusilə qeyd etmək lazımdır. Bu sənədlərin müddəaları birbaşa silahlı münaqişə zamanı mədəni irs nümunələrinin qorunması ilə bağlı bütün aspektləri əhatə edir. Konvensiyaya görə, işğalçı dövlət mədəni sərvətlərin oğurlanmasına, dağılmasına və ya zədələnməsinə, talan edilməsinə, qeyri-qanuni mənimsəmə hərəkətlərinə yol verməməli, bu sərvətlərə qarşı yönəlmiş düşmənçilik hərəkətlərindən çəkinməlidir. Sənəddə, həmçinin, mədəni sərvətlərə münasibətdə hər hansı vandalizm hərəkətlərinin qadağan edilməsi, qarşısının alınması və aradan qaldırılması Tərəflərin öhdəlikləri olaraq təsbit olunmuşdur.

Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutunda isə dini, təhsil, incəsənət, elm və xeyriyyə məqsədləri üçün istifadə olunan binaların, tarixi abidələrin, incəsənət və elm əsərlərinin qəsb edilməsi, dağıdılması və ya onlara qəsdən ziyan vurulması müharibə cinayəti hesab olunur.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 116-cı maddəsinə əsasən də işğal edilmiş ərazidə hər hansı arxeoloji qazıntı aparma, mədəni sərvətin mədəni, tarixi və ya elmi xarakterini gizlətmək və ya məhv etmək məqsədilə onu modifikasiya etmə və ya ondan istifadə növünü dəyişdirmə, mədəni sərvəti qəsdən böyük həcmdə dağıtma və ya mənimsəmə, yaxud mədəni sərvətə münasibətdə oğurluq, soyğunçuluq, qanunsuz mənimsəmə və ya vandalizm aktları törətmə, hərbi zərurət olmadan qəsdən mədəni sərvəti, o cümlədən gücləndirilmiş mühafizə altında olan mədəni sərvəti hücum obyektinə çevirmə, yaxud gücləndirilmiş mühafizə altında olan mədəni sərvətdən və ya ona bilavasitə bitişik ərazilərdən hərbi əməliyyatların dəstəklənməsi üçün istifadə etmə, mədəni sərvəti işğal edilmiş ərazidən qanunsuz çıxarma, yaxud həmin ərazidə olan mədəni sərvətə mülkiyyət hüququnu başqasına vermə və ya ona xitam vermə silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarının pozulması hesab edilir.

İşğal dövründə bir sıra hallarda Ermənistan tərəfindən əngəllənsə də, müxtəlif təşkilatların xüsusi missiyalarının işğal altında olan ərazilərə təşkil olunan səfərlərinin hesabatları, aparılan araşdırmalar, erməni mənbələrində müxtəlif vaxtlarda yayılan və bir-biri ilə uyğunlaşmayan məlumatlar, peyk çəkilişləri, həmçinin işğaldan azad edildikdən sonra bu ərazilərdə Azərbaycan hökuməti tərəfindən aparılan monitorinqlər və beynəlxalq ictimaiyyətin səfərləri zamanı hazırlanan materiallar Ermənistanın beynəlxalq hüquq normalarını və milli qanunvericiliyi kobud şəkildə pozduğunu sübut edir.

Bütün bunları nəzərə alaraq, Azərbaycan hökuməti beynəlxalq səviyyədə pozulmuş hüquqlarının bərpası və mədəni irs nümunələrimizin məhv olması ilə bağlı dəyən zərərin aradan qaldırılması məqsədilə beynəlxalq mübarizəsini davam etdirir.

**Milli və beynəlxalq tənzimləmə metodlarının qarşılıqlı əlaqəsi.** Mədəni irsin qorunmasında milli və beynəlxalq tənzimləmə metodlarının qarşılıqlı əlaqəsi çoxşaxəli və qarşılıqlı asılı münasibətlər sistemidir. Bu əlaqə dövlətlərin milli hüquq sistemi ilə beynəlxalq təşkilatların müəyyən etdiyi standartlar arasında hüquqi, institusional və praktiki uyğunlaşmanı əhatə edir. Azəraycan Respublikası Konstitusiyasının 10-cu maddəsində qeyd edilir ki, Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur.

Mədəni irsin qorunması sahəsində beynəlxaq hüquq normaları milli siyasətlərin və qanunvericiliyin təkmilləşdirilməsinə kömək edir. Bütün sahələrdə olduğu kimi mədəni irs sahəsində də

beynəlxalq sənədlər çərçivə xarakteri daşıyır və onu ratifikasiya edən dövlətlərin üzərinə müəyyən öhdəliklər qoyur. Dövlətlər bu sənədlərdən irəli gələn hüquq və öhdəliklərini milli və beynəlxalq səviyyədə həyata keçirirlər. Dövlətlər öz milli qanunvericiliklərində bu sənədlərin müddəalarını nəzərə alaraq, mədəni irsin qorunması üçün mexanizmlər hazırlayırlar. Məsələn, Azərbaycan Respublikasının "Tarix və mədəniyyət abidələrinin qorubnması haqqında" Qanunu UNESCO-nun konvensiyalarında əks olunan prinsiplər əsasında hazırlanmışdır. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir. Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar ilə (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir. Beynəlxalq təşkiatlar tərəfindən təqdim olunan metodoloji və texniki tövsiyələr də milli səviyyədə qanunvericilik aktlarının və dövlət proqramlarının hazırlanmasında mühüm rol oynayır.

Milli və beynəlxalq tənzimləmə metodları arasında qarşılıqlı əlaqənin digər mühüm aspekti hesabatlılıq və qiymətləndirmədir. Beynəlxalq təşkilatlara və konvensiyalara qoşulan dövlətlər üzərlərinə götürdükləri öhdəliklər əsasında müəyyən hesabatlar təqdim etməli və mədəni irsin qorunması ilə bağlı görülən işlər barədə məlumat verməlidirlər. Bu həm beynəlxalq ictimaiyyət qarşısında şəffaflığı təmin edir, həm də milli səviyyədə mədəni irs siyasətini stimullaşdırır.

Qarşılıqlı əlaqə özünü praktiki əməkdaşlıqda da bariz göstərir. Layihələrin birgə icrası, təcrübə mübadiləsi, kadr hazırlığı, maliyyə dəstəyi, sərgi, konfrans və digər təşviqedici tədbirlərin təşkili, birgə bərpa işləri, bərpa texnologiyalarının tətbiqi və təcrübə mübadiləsi məhz milli və beynəlxalq tənzimləmə metodlarının qarşılıqlı əlaqəsinin təzahürüdür.

Milli və beynəlxalq uyğunluğu zəruri edən əsas fakt isə mədəni irsin ümumbəşəri əhəmiyyət kəsb etməsidir. Çünki mədəni irs həm bir xalqın tarixini və kimliyini ifadə edir, həm də bütün bəşəriyyətin ortaq dəyərli mirasıdır. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının mədəniyyət sahəsində dövlət siyasətinin prinsiplərindən biri də məhz dünyəvilik - dünyəvi dəyərlərin yaradılması, qorunması və inkişafının təmin olunması prinsipidir. Artıq Azərbaycan nəinki öz mədəni irsini qorumaq və təbliğ etmək sahəsində beynəlxalq əməkdaşlıq həyata keçirir, o hətta müxtəlif regionlarda beynəlxalq tədbirlərə təşəbbüskarlıq edir, ümumdünya irsinin qorunmasında digər dövlətlərə və qurumlara yardım və dəstək göstərir.

Bütün qeyd olunanları nəzərə alaraq, bu nəticəyə gəlmək olar ki, mədəni irsin qorunması və gələcək nəsillərə sağlam ötürülməsi üçün beynəlxalq və dövlətdaxili hüquq paralel işləməli, beynəlxalq əməkdaşlığın davamlılığı təmin edilməli, dövlət mədəni irsin qorunması sahəsində öz öhdəliklərini tam icra etməli, eyni zamanda təkcə dövlət deyil, qeyri-dövlət sektoru, bütün fiziki və hüquqi şəxslər də bu sahədə öz hüquq və vəzifələrini dərk etməli və düzgün icra etməli, mədəni irsin qorunması üzrə maarifləndirmə işləri genişləndirilməli və akademik yanaşma gücləndirilməlidir.

Unutmayaq ki, hər bir xalqın mədəni irsini qoruması öz "kimliyini" qorumasıdır!!!

**Ədəbiyyat:**

Abdullayeva, F. (2014). Mədəni irsin tədqiqi və səmərəli idarə edilməsi sahəsində əməkdaşlıq. Mədəniyyət qəzeti (23 aprel 2014-cü il). Əldə edilib: 31 may 2025-ci il. http://www.anl.az/down/meqale/medeniyyet/2014/aprel/365431.htm

Azərbaycan Respublikası. (1995). Azərbaycan Respublikasının Konstitusiyası (12 noyabr 1995-ci il).

Azərbaycan Respublikası. (1998). "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Qanun (10 aprel 1998-ci il, № 470-IQ).

Azərbaycan Respublikası. (1999). "Arxeoloji irsin qorunması haqqında" Avropa Konvensiyasına qoşulma haqqında Qanun (20 oktyabr 1999-cu il, № 712-IQ).

Azərbaycan Respublikası. (2012). "Mədəniyyət haqqında" Qanun (21 dekabr 2012-ci il, № 506-IVQ).

Azərbaycan Respublikası. (2014). Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyasının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (14 fevral 2012, № 273). Əldə edilib: 16 iyun 2025. http://www.e-qanun.az/framework/27056

Azərbaycan Respublikası. (2009). Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında Konvensiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (26 noyabr 2009-cu il, № 918-IIIQ). Əldə edilib: 5 iyun 2025-ci il. http://www.e-qanun.az/framework/19041

Azerbaijan.az. (tarixsiz). Azərbaycan – ICESCO. Azərbaycan beynəlxalq aləmdə. Əldə edilib: 10 iyun 2025-ci il. http://www.azerbaijan.az/related-information/200

Azərtac. (2022). 18 Aprel – Beynəlxalq Abidələr və Tarixi Yerlər Günüdür (18 aprel 2022-ci il). Əldə edilib: 31 may 2025-ci il. http://www.azertag.az/xeber/2097932

Azərtac. (2023). UNESCO-nun Dünya Yaddaşının Beynəlxalq Reyestrinə daha 64 nümunə daxil edilib (25 may 2023-cü il). Əldə edilib: 28 iyun 2025-ci il. https://azertag.az/xeber/2631140

Daimi Nümayəndəlik. (2023). Xurşidbanu Natəvanın "Gül Dəftəri" UNESCO-nun Dünya Yaddaşının Beynəlxalq Reyestrinə salınıb. Azərbaycan Respublikasının UNESCO yanında Daimi Nümayəndəliyi (31 oktyabr 2023-cü il). Əldə edilib: 28 iyun 2025-ci il. http://www.unesco.mfa.gov.az/az/news/xursidbanu-natevanin-gul-defteri-unesco-nun-dunya-yaddasinin-beynelxalq-reyestrine-salinib

Dövlət Xidməti. (tarixsiz). Azərbaycan mədəniyyəti. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti. Əldə edilib: 25 may 2025-ci il. http://www.irs.gov.az/culture

Əsasnamə. (2018). Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin Əsasnaməsi (6 iyun 2018-ci il). Əldə edilib: 22 may 2025-ci il. http://www.irs.gov.az/esasname

Europa Nostra. (no date - a). Organisation: Our mission. Retrieved June 6, 2025, from http://www.europanostra.org/organisation

Europa Nostra. (no date - b). Awards. Retrieved June 6, 2025, from http://www.europanostra.org/our-work/awards

ICOMOS Turkey. (no date). Charters adopted by ICOMOS. Retrieved May 31, 2025, from http://www.icomos.org.tr/?Sayfa=Icomostuzukleri&dil=tr

International Centre for the Study of the Preservation and Restoration of Cultural Property (ICCROM). (no date - a). What is ICCROM? Retrieved June 2, 2025, from http://www.iccrom.org/about/what-iccrom

International Centre for the Study of the Preservation and Restoration of Cultural Property (ICCROM). (no date - b). The history of ICCROM. Retrieved June 2, 2025, from http://www.iccrom.org/about/overview/history

International Centre for the Study of the Preservation and Restoration of Cultural Property (IC-

CROM). (no date - c). Mission and vision. Retrieved June 2, 2025, from http://www.iccrom.org/about/overview/mission-and-vision

International Centre for the Study of the Preservation and Restoration of Cultural Property (ICCROM). (no date - d). ICCROM Library. Retrieved June 2, 2025, from http://www.iccrom.org/resources/iccrom-library

International Council of Museums (ICOM). (no date - a). History of ICOM. Retrieved June 4, 2025, from http://www.icom.museum/en/about-us/history-of-icom

International Council of Museums (ICOM). (no date - b). Missions and objectives of ICOM. Retrieved June 4, 2025, from http://www.icom.museum/en/about-us/missions-and-objectives

International Council of Museums (ICOM). (no date - c). Code of ethics. Retrieved June 4, 2025, from http://www.icom.museum/en/resources/standards-guidelines/code-of-ethics

International Council on Monuments and Sites (ICOMOS). (1964). Abidələr və tarixi yerlərin konservasiyası və bərpası üzrə Beynəlxalq Xartiya (Venesiya Xartiyası). Retrieved June 6, 2025, from http://www.admin.icomos.org/wp-content/uploads/2025/03/Venice_Charter_AZE.pdf

International Council on Monuments and Sites (ICOMOS). (no date - a). The history of ICOMOS. Retrieved May 31, 2025, from http://www.icomos.org/the-history-of-icomos

International Council on Monuments and Sites (ICOMOS). (no date - b). Charters and doctrinal texts. Retrieved May 31, 2025, from http://www.icomos.org/charters-and-doctrinal-texts

International Council on Monuments and Sites (ICOMOS). (no date - c). 18 April – Celebrating International Day for Monuments and Sites. Retrieved May 31, 2025, from http://www.icomos.org/agenda/18-april-celebrating-international-day-for-monuments-and-sites

Islamic World Educational, Scientific and Cultural Organization (ICESCO). (no date). About ICESCO – in brief. Retrieved June 6, 2025, from http://www.icesco.org/en/who-we-are/about/in-brief

Məlikova, A. (2025). Mədəni irsin qorunmasında beynəlxalq təşkilatların rolu. Tarixi Yerlər və Abidələr III Beynəlxalq Ağsu Simpoziumu materialları. Bakı.

Mədəniyyət Nazirliyi. (tarixsiz - a). Məramımız. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi. Əldə edilib: 26 may 2025-ci il. http://www.heritage.gov.az/az/pages/melumat

Mədəniyyət Nazirliyi. (tarixsiz - b). Azərbaycan - UNESCO mədəni əməkdaşlığı. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi. Əldə edilib: 25 may 2025-ci il. http://www.culture.gov.az/az/activity/58

Mədəniyyət Nazirliyi. (tarixsiz - c). Azərbaycan - TÜRKSOY mədəni əməkdaşlığı. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi. Əldə edilib: 5 iyun 2025-ci il. http://www.culture.gov.az/az/activity/59

Mədəniyyət qəzeti. (2020). Bakı, Gəncə və Qəbələ UNESCO-nun "Öyrənən şəhərlər" şəbəkəsində (25 sentyabr 2020-ci il). Əldə edilib: 28 iyun 2025-ci il. http://www.medeniyyet.info.az/page/news/54049

Miras.az. (2022a). Ümumdünya Abidələr Fondu təhlükə altında olan tarixi yerlərin 2022-ci il üzrə siyahısını elan edib (2 mart 2022-ci il). Əldə edilib: 6 iyun 2025-ci il. http://www.miras.az/index.php?lang=az&sectionid=8&sect=1372

Miras.az. (2022b). İrəvanın Təpəbaşı (Kond) məhəlləsi Ümumdünya irsi kimi qorunmalıdır (08 avqust 2022-ci il). Əldə edilib: 16 iyun 2025-ci il. http://www.miras.az/index.php?sectionid=8&-sect=1387

Nazirlər Kabineti. (2015). Azərbaycan Respublikasında mədəni irs nümunələrinin qorunması, bərpası və istifadəsi Qaydası. Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (14 iyul 2015-ci il, № 266). Əldə edilib: 22 may 2025-ci il. https://www.e-qanun.az/framework/30401

Süleymanlı, S. (2018). Mədəni irsin qorunmasının beynəlxalq-hüquqi tənzimlənməsi problemləri və Azərbaycan Respublikasının qanunvericiliyi. Bakı.

Türksoy. (tarixsiz). Tarihçe. Uluslararası Türk Kültürü Teşkilatı. Retrieved June 6, 2025, from http://www.turksoy.org/tarihce

UNESCO. (2003). Convention for the safeguarding of the intangible cultural heritage. UNESCO – Legal Affairs. 2003, October 17. Retrieved June 5, 2025, from http://www.unesco.org/en/legal-affairs/convention-safeguarding-intangible-cultural-heritage#item-2

UNESCO. (no date - a). Properties inscribed on the World Heritage List and sites on the Tentative List: Azerbaijan. UNESCO World Heritage Convention. Retrieved June 28, 2025, from http://www.whc.unesco.org/en/statesparties/az

UNESCO. (no date - b). Memory of the World International Register. UNESCO – Memory of the World. Retrieved June 28, 2025, from http://www.unesco.org/en/memory-world/grid?hub=1081

UNESCO. (no date - c). UNESCO Global Network of Learning Cities. Retrieved June 28, 2025, from http://www.uil.unesco.org/en/learning-cities

UNESCO. (no date - d). Creative Cities Network. Retrieved June 28, 2025, from http://www.unesco.org/en/creative-cities/grid?hub=80094

Vikipediya. (tarixsiz). Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı. Əldə edilib: 6 iyun 2025-ci il. http://www.az.wikipedia.org/wiki/Beyn%C9%99lxalq_T%C3%BCrk_M%C9%99d%C9%99niyy%C9%99ti_T%C9%99%C5%9Fkilat%C4%B1

Wikipedia. (no date). 7 most endangered programme. In Wikipedia. Retrieved June 6, 2025, from http://www.en.wikipedia.org/wiki/7_Most_Endangered_Programme

World Monuments Fund. (no date - a). About the World Monuments Watch. Retrieved June 6, 2025, from http://www.wmf.org/world-monuments-watch

World Monuments Fund. (no date - b). Our work. Retrieved June 6, 2025, from http://www.wmf.org/our-work

World Monuments Fund. (2025). The Moon. 2025 World Monuments Watch List. Retrieved June 6, 2025, from http://www.wmf.org/monuments/moon

Xarici İşlər Nazirliyi. (tarixsiz). Azərbaycan – UNESCO münasibətləri. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi. Əldə edilib: 15 iyun 2025-ci il. http://www.mfa.gov.az/Az/category/beynelxalq-teskilatlar/azerbaycan-unesco-munasibetleri

Yeni Müsavat. (2013). Qarabağda məhv edilən mədəni irs (23 yanvar 2013-cü il). Əldə edilib: 16 iyun 2025-ci il. http://www.anl.az/down/meqale/yeni_musavat/2013/yanvar/290346.htm

Göndərildi: 08.08.2025
Qəbul edildi: 22.08.2025
Təqdim etdi: Məleykə Hüseynova
İstinad: Hüseynova, M. (2025). Mədəni irsin qorunması sahəsində milli və beynəlxalq tənzimetmə. F. Xəlilli (Hazırlayan). Mədəni İrs Beynəlxalq Ustad Məktəbi: Tədris vəsaiti. (s. 43-64). Bakı: AFPoliqrAF. https://doi.org/10.30546/978-9952.2025.1043

AZƏRBAYCAN RESPUBLİKASININ
QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARINA
DÖVLƏT DƏSTƏYİ AGENTLİYİ

MİRAS
Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi

mədəni irs ustad məktəbi

# MƏDƏNİ
# İRS BEYNƏLXALQ
# USTAD MƏKTƏBİ

## TƏDRİS VƏSAİTİ

Hazırlayan:
Dr. Fariz XƏLİLLİ
BAKI - 2025